# 1+1





# Qol

*Ələmdar CABBARLI*

Təhsil Nazirliyindən necə sevincək çıxdığımı, çətin ki, sözlə təsvir eləyim. Gərək orda olub məni görəydiniz. Uçmağa qanadım yox idi, demirəm, sevincimdən uçurdum. Xaricdə təhsil almaq üçün verdiyim ərizənin üstünü nazir şəxsən özü yazmışdı. Norveçə gedirdim. Oslo Universitetində, özü də dövlət hesabına oxuyacaqdım. Qalırdı bircə oxuduğum riyaziyyat fakültəsindən razılıq məktubu almağım. Metronun "Sahil" stansiyasından çıxıb oxuduğum universitetə sarı gedəndə "Cümhuriyyət bağı"nda dekanımız Aydın müəllimlə qarşılaşdım. Aydın müəllim ölkənin tanınmış riyaziyyatçılarından idi, Akademiyanın müxbir üzvü, professor idi. Mən hələ heç nə deməmiş rəngimdən, ruhumdan hiss elədi ki, işim düzəlib. Bilirdi ki, neçə aydı xaricdə təhsil almaq üçün dəridən-qabıqdan çıxıram. Şad xəbəri dekanıma deyib, bildirdim ki, fakültənin razılıq məktubunu bu gün həll eləsəniz, sənədlərimi Norveç Səfirliyinə sabah təqdim edərəm. Aydın müəllim, bəlkə də, məndən çox sevinirdi. Məni təbrik eləyib, əlimi sıxandan sonra dedi ki, Elmlər Akademiyasına iclasa gedirəm, sən get məktubu hazırla, o birilərinə də qol çəkdir, mən də gəlib imzamı çəkim, təcili apar möhürə. Mən dekanıma təşəkkür eləyib, tez-tələsik oxuduğum fakültəyə gəldim. Dekanın katibəsi ilə bir yerdə xüsusi blankda məktubu hazırladıq. Qaldı imzaları çəkdirmək. Məktubun axırında 7 imza yeri var idi. Mən həmin qrafalara kimlərin qol çəkəcəyini soruşanda katibə dedi:

– Birinci yerə mütləq dekan qol çəkməlidir. Qalan qrafalara isə dekanın tədris üzrə müavini, elmi işlər üzrə müavin, fakültə həmkarlar təşkilatının sədri, magistr olduğun kafedranın müdiri, sonra bakalavrda diplom rəhbərin olmuş şəxs, bir də indiki magistr dissertasiyanın rəhbəri qol çəkməlidi.

Katibəyə bir sual da verəsi oldum:

– Yaxşı, birinci yer aydındır, dekan qol çək-

məlidir, bəs qalanları? Ardıcıllıq necə olsun?

Dedi ki, qalanlarının fərqi yoxdur, kim neçənci yerə qol çəkir, çəksin. Əsas odur ki, sadaladığım şəxslərin sənəddə imzaları olsun. Mən otaqdan çıxanda katibə möhkəm-möhkəm tapşırdı:

– Blankı korlama ha! Bu cür blanklar nazirlikdən fakültələrə sayla verilir, hər birinin də ayrıca nömrəsi var.

Dekanın qəbul otağından əlimdə məktub koridora çıxmağımla magistrant olduğum kafedranın müdiri Əbdüləli müəlimlə üz-üzə gəlməyim bir oldu. Əbdüləli müəllim soruşdu ki, nə məsələdir, dekanın otağında nə gəzirsən? Mən hal-qəzyəni danışdım. Gözünə döndüyüm məktubu əlimdən nə təhər dartdısa, ruhum incimədi. Yenə eyni cəldliklə elə koridordaca, dizinin üstündə dekanın qol çəkəcəyi yerdən sonraya – ikinci qrafaya imzasını çəkib, məktubu özümə qaytardı. Sonra da heç nə demədən, elə bil yanğın söndürməyə gedirmiş kimi koridorun başındakı otağına getdi.

Açığı, mən əvvəlcə dekan müavinlərinə qol çəkdirmək fikrindəydim, Əbdüləli müəllimi hardasa dördüncü, ya da həmkarların sədrindən sonra – beşinci nəzərdə tuturdum. Bir anlığa yaman narahat oldum. Ürəyimə damdı ki, yüz faiz müavinlər mənə irad tutacaq ki, bəs bizim yerimiz dekandan sonradı, nahaq ikinci qrafaya ayrı adama qol çəkdirmisən. Ürəyimi yeyə-yeyə tədris işlərinə baxan Nursultan müəllimin otağına girdim. Nursultan müəllim əvvəl məktuba, sonra da mənə baxıb dedi ki, mən bura qol çəkə bilmərəm. Soruşdum, müəllim, niyə, hansı səbəbə görə? Qayıtdı ki, sən bilmirsən, tədrisə mən baxıram, özün də Avropaya oxumağa gedirsən, ikinci yerə mən qol çəkməliydim. Dedim, müəllim, ora üçün bunun bir əhəmiyyəti yoxdur, birinci qrafada fakültə dekanının qolu olmalıdır, qalanları hara gəldi, çəkə bilər. Nursultan müəllim bu dəfə lap havalandı:

– Sən durub mənə ağıl öyrətmə, əslinə qalsa, birinciyə də mən çəkməliyəm. Sən təhsil almağa getmirsən, bala? Bu fakültədə təhsilə mən baxıram, dekan inzibati vəzifədir, o nə bilir, tədris nədir?

İstədim bir də üz vuram, gördüm, alınası söbhət deyil. Kor-peşman koridora çıxdım. Öz-özümə dedim ki, bir adamla heç nə olmaz, o birilərinə qol çəkdirim, buna dekan gələndə özü deyər. Hirsimdən koridoru iki dəfə o başbu baş gəzəndən sonra tədris üzrə müavinin otağı ilə üzbəüz otağa – elmi işlər üzrə müavinin kabinetinə keçdim. Elmi işlər üzrə müavin bizim rayondan idi, məni həmişə “eloğlu” deyib çağırırdı. Hər dəfə də rayona gedəndə mənə bir yığın şey tapşırırdı. Dörd il buna motal pendiri, nehrə yağı, çəpiş əti, çaşır şorabası, kəkotu, cökəçiçəyi, bal daşımaqdan qollarım yağır olmuşdu. Amma bir dəfə də mənə bir qəpiklik xeyri dəyməmişdi. Eləcə şirin dili var idi. Düzünə qalsa, heç onun köməyinə ehtiyacım da yox idi. Allaha şükür, oxuyub qiymətlərimi alırdım. Bir dəfə anam dedi, bala, bu müəllimə bir belə ki, “veş” daşıyırsan, heç olmasa, sənə bir xeyri dəyir? Dedim ki, yox, ay ana, şirin dilindən başqa bir köməyini görməmişəm. Anam dedi, bala, onda dörd ildi bizi niyə süng eləyirsən, evimizi Alı yurduna döndərmisən. Atam qayıtdı ki, heç nə olmaz, eloğlumuzdur, camaatın içində uşaqla şirin danışırsa, elə bil mənə dünyanı verir. Nə isə, çox başınızı ağrıtmayım, eloğlumun qapısını döymədən ərklə açdım. Başımı içəri salan kimi yerindən qalxıb, yenə şirin dilini işə saldı ki, ay eloğlu, xoş gəlmisən, beş gəlmisən. Mən lap ürəkləndim, hal-qəzyəni buna da nağıl eləyib, məktubu eloğlumun masasına qoydum. Eloğlum məktuba baxan kimi bir sifət aldı, bir sifət aldı ki, Allah o sifəti düşmənimə də göstərməsin. Başladı mənə əməlli-başlı hücum eləməyə:

– Bu nədir gətirib stolumun üstünə qoyursan? Heç utanırsan, heç xəcalət çəkirsən? Heç ölüb yerə girirsən? Burda ikinci qrafada kimin imzası olmalıdı? Əlbəttə, elmi işlər üzrə müavinin! Hələ düzünə qalsa, birinciyə də mən qol çəkməliyəm. Sən xaricə elm öyrənməyə gedirsən, düzdü? Elmi işlərə baxanın imzası başda olmalıdı. Cəhənnəm, heç olmasa, ikinci yeri mənə saxlayaydın.

Mən istədim, məsələni bir az izah eləyim, eloğlum aman vermədi:

– Sən eloğlu kimi birinci mənim üstümə gəlməliydin. Haram olsun sənə o dağların suyu, çörəyi.

Eloğlumun sözlərindən şoka düşdüm. Özümü nə təhər itirdimsə, onun otağından ko-

ridora hansı şəraitdə çıxdığımı indi də təsvir eləyə bilmirəm. İstədim məktubu cırıb atam. “Şeytana lənət!” dedim. Koridorun başında bir-birinin oduna iki siqaret yandırıb çəkəndən sonra bir az özümə gəldim. Fikirləşdim, dekan gələndə, yəqin, bunu da yoluna qoyar, ona qədər gedim o birilərinə qol çəkdirim.

Yaşı səksəni haqlayan Həmkarlar təşkilatı sədrinin qapısını astaca döydüm, sonra yadıma düşdü ki, bunun qulağı eşitmir, qapını açıb içəri keçdim. Zərbalı müəllimin qulağı yaxşı eşitməsə də, yaddaşı yerindəydi. Məni o saat tanıdı. Keçən il riyaziyyat olimpiadasında respublika birinciliyini qazananda mənə Həmkarlar adından diplom da vermişdi.

– Sən o birinci yeri tutan oğlan deyilsən?

– Bəli, Zərbalı müəllim, maşallah, yaxşı yaddaşınız var, – istədim qılığına girəm.

Soruşdu ki, nə yaxşı məni yad eləmisən? Məsələni danışdım. Gördüm yaxşı eşitmir, ağzımı lap qulağının dibinə dirəyib, xahiş elədim ki, müəllim, imkan varsa, siz beşinci yerə imza çəkin, üçüncü, dördüncü yerlərə müavinlər qol çəkəcək. Dedi, deyəsən, sənin başına hava gəlib, nə üçüncü yer, nə beşinci yer, nə müavin, onların ikisi də mənim tələbəm olub, indi deyirsən, məndən qabağa qol çəksinlər. Əslinə qalsa, mən lap birinciyə qol çəkməliyəm. Avropaya getmirsən, bala? Avropada həmkarların səlahiyyəti hamıdan böyükdür. Orda dekan-zad söhbəti yoxdur, əsas həmkarlardır. Sən bilirsən ki, elə ilk Həmkarlar təşkilatı on səkkizinci əsrdə sənin getdiyin o Avropada – Böyük Britaniyada yaranıb?! Dünyadan xəbərin var, bala? Sonra da başladı həmkarların yaranma tarixi, dünyada, keçmiş SSRİ-də həmkar hərəkatının formalaşması barədə mühazirə oxumağa. Əvvəlcə dedi ki, hazırda ölkəmizdə həmkarlar təşkilatlarının fəaliyyəti “Həmkarlar İttifaqları haqqında” Azərbaycan Respublikasının Qanunu, həmçinin həmkarlar ittifaqlarının fəaliyyətinə aid olan digər qanunvericilik aktları ilə tənzimlənir. Sonra dedi ki, bundan əlavə, bu sahədə qəbul edilmiş beynəlxalq hüquq normalarına və konvensiyalara da əməl etmək lazımdır. Nə bilim, həmkarların sədri neçə ildən bir seçilməlidir, sədr iclasda iştirak edənlərin heç olmasa üçdə ikisinin səsini almalıdır və sairə və ilaxır. Gördüm ki, burda dayansam, kişi səhərə kimi mühazirə oxuyacaq, məktubu stolun üstündən ehmalca götürüb aradan çıxdım. İstədim gedim koridorun küncündə bir siqaret də yandırım, Zərbalı müəllim dalımca koridora çıxdı. Dedi, qayıt içəri, vacib sözüm var. Fikirləşdim, yəqin, insafa gəlib, qol çəkmək istəyir. Mən qayıdıb Zərbalı müəllimin otağına təkrar girənə kimi o artıq kreslosunda oturmuşdu. İçəri keçib dedim:

– Eşidirəm, Zərbalı müəllim.

Zərbalı müəllim gur saçlarını əli ilə arxaya darayıb, dahiyanə bir görkəm alaraq dedi:

– Sən bilirdin ki, Bakıda ilk həmkarlar təşkilatını konka sürənlər yaradıb?

Mən arxama baxmadan Zərbalı müəllimin kabinetindən çıxaraq, konka icad eləyənin də, konka sürənin də ölüsünü-dirisini fakültəmizin koridoruna düzüb bir siqaret yandırdım. Siqaretin kötüyünü pəncərədən çölə tullayıb öz-özümə dedim: – Eybi yox, bunu da Aydın müəllim yoluna qoyar. Tərpəndim bakalavrda diplom rəhbərim olmuş Mirzağa müəllimin oturduğu otağa. Mirzağa müəllimi məsələdən agah eləyəndə diplom rəhbərim dedi ki, əsas bakalavrda yazdığın diplom işidi, qalan şeylər hamısı boş şeydi. Səni gələcəkdə buna görə tanıyacaqlar. Ona görə də ikinci yerə mən qol çəkməliydim, nahaq belə eləmisən:

– Əslinə qalsa, birinciyə də mən qol çəkməliyəm, dekan icraçıdı. Avropada əsas diplom rəhbəridi, özü də bakalavr diplomu ha, magistr yox!

Mən burdan da kor-peşman çıxıb, sonuncu adamın – hal-hazırda magistr dissertasiyamın rəhbəri olan Məleykə xanımın yanına getmək fikrindən daşındım. Fikirləşdim ki, bir imza ilə mənim yaram sağalası deyil. Sonra fikrimi dəyişdim, öz-özümə dedim, babamın sözü olmasın – qırılan qoşundan gedir – heç olmasa gedim, buna qol çəkdirim, qalanlarını dekanım həll eləyər. Məleykə xanımın qapısını ürəklə döydüm. Fikirləşdim, səhərdən bəri üz tutduqlarımın hamısı kişilərdir, bu, qadındır, zərif məxluqdur, yəqin, sözümü yerə salmaz. Hal-əhval tutub, dərdimi təzə izhar eləyirdim ki, Məleykə xanım daş atıb başını tutdu. Dedi, ikinci yerə mən qol çəkməliydim, Əbdüləlinin burda nə işi var? Sonra da başladı mənə ağıl öyrətməyə:

– Sən bilmirsən ki, Avropada əsas magistratura təhsilidir, bakalavr orda boş şeydi! Həm də ki mən qadınam, əslinə qalsa, birinci yerə mən imza çəkməliyəm, onlar mənə jest eləməli idilər, centlmenlik göstərməliydilər. Balamsan, incimə, mən özümə hörmət eləyən adamam, bura qol çəksəm, özüm öz gözümdən düşəcəyəm.

Məleykə xanımın otağından da suyu süzülə-süzülə çıxdım koridora. Başladım ürəyimdə məktubda ikinci yerə qol çəkib sənədi korlayan kafedra müdirim Əbdüləli müəllimi asıb-kəsməyə. Bəlkə də, o, ikinci yeri zay eləməsəydi, o birilərini xahiş-minnətlə yola gətirərdim. Sonra da öz-özümə dedim: “Bu mənəm-mənəmlik ki bunlarda var, çətin yola gətirə biləydim”. Koridorda var-gəl eləyə-eləyə fikirləşirdim: “Niyə axı insanlar bu qədər cılız işlərə qol qoyurlar. Niyə axı bunların hamısının düşüncə tərzi eynidir? Bunların içərisində bir qeyri-standart düşüncəsi olan yoxdurmu, görəsən? Son vaxtlar fəlsəfəyə dair çoxlu kitablar oxumuşdum və onların əksəriyyətində belə bir qənaət var idi ki, dünyanı nə gözəllik, nə də mədəniyyət xilas edə bilər. Bir-birini təkrar edən, şablon düşüncəli insanlar və onların verdikləri standart qərarlar bəşəriyyəti xilas edə bilməz. Dünyanı yalnız qeyri-standart düşüncə xilas edə bilər, bəşəriyyətin üzərinə çökən bu qaranlığı yalnız qeyri-standart qərarlar işıqlandıra bilər.

Lap elə ürcah olduğumuz Qarabağ düyününün də açarı hansısa qeyri-standart, gözlənilməz qərarda gizlənib. Necə ki, eyni körpənin anası olduğunu iddia edən iki qadının arasından əsl ananı Süleyman peyğəmbər qeyri-standart qərarla seçdi! Necə ki, bir ingilis məsəlində iki dənə qara rəngdə daş atılmış torbadan tacir qızı qeyri-standart düşünərək ağ rəngdə daş “çıxartmağı” bacardı! Necə ki, İsgəndər “Qordi düyünü”nü fərqli düşüncə ilə çözdü! Necə ki... Necə ki...”

Mən fəlsəfə burulğanında qərq olub, dekanlığın qabağında Aydın müəllimin Akademiyadan qayıtmağını gözləyirdim. Dərdimə çarə eləsə, o eləyəcəkdi. Qapının ağzında boynumu büküb durmuşdum. Bu dəm üzbəüz otaqlardan dekan müavinləri, başdakı otaqdan həmkarların sədri koridora çıxdılar. Sonra Əbdüləli müəllim də otağından çıxıb onlara yanaşdı. Bilirdim ki, hər gün nahara bir yerdə gedirlər. Baxmayaraq ki, bütün günü bir-birinin arxasınca danışırdılar. Dekanın otağının qarşısından keçəndə eloğlum üzünü mənə tutub soruşdu:

– Eloğlu, məsələnin axırı noldu, bir tərəfə çıxartdınmı?

Dedim, heç nə, nə olasıdı, heç kim sənədimə qol çəkmir, burda durub dekanı gözləyirəm. Eloğlum əlini Əbdüləli müəllimə uzadıb dedi:

– Bütün günahlar bundadır, o, ikinci yerə qol çəkib, mənim yerimi “zanit” eləməsəydi, sənin işin çoxdan düzəlmişdi.

Bu dəm tədris üzrə müavin acıqlı-acıqlı qayıtdı ki, mən başa düşmədim, ikinci yer hardan sənin oldu, ora tədrisə baxanın yeridir. Həmkarların sədri dedi ki, siz dünənki uşaqsınız, ora mənim yerimdir, Əbdüləli müəllim də dedi, danışığınıza fikir verin, mən öz halal-hümbət yerimə qol çəkmişəm, mənim bineyi-qədimdən heç kəsin yerində gözüm olmayıb. Nə isə, ara qarışdı, məzhəb itdi, səsə bakalavrda diplom rəhbərim olmuş Mirzağa müəllim gəldi, onun dalınca magistr rəhbərim Məleykə xanım otağından başıalovlu çıxdı. Əlqərəz, iki dəqiqə çəkməmiş koridor doldu adamla. O deyirdi, mən böyük adamam, bu deyirdi, mən səndən də böyük adamam, biri deyirdi, ikinci yerə dədəm də gəlsə, qoymaram qol çəksin. Bir sözlə, burda bir teatr quruldu ki, gəl görəsən. Qırğının şirin yerində dekan Aydın müəllim liftdən düşüb bizə sarı gəldi. Gördüyü mənzərədən heç nə başa düşməyən Aydın müəllim soruşdu ki, bu nə səs-küydü, niyə bir-birinizi qırırsınız, nəyi bölə bilmirsiniz? Səs-küy bir az da qızışdı, mən birtəhər fürsət tapıb məsələnin məğzini dekana dedim. Dekan tövrünü pozmadan, amma uca səslə – elə buna görə bir-birinizi qırırsınız – deyib, məktubu əlimdən aldı və hər kəsin görəcəyi şəkildə sonuncu – yeddinci yerə öz imzasını çəkib dedi:

– Bir-birinizi qırmayın, indi kim hardan istəyir, qol çəksin!

Pat vəziyyətinə düşən özünə vurğunlar dəstəsi məktubu bir-birinin əlindən darta-darta kim hara gəldi, qol çəkib bir yerdə nahara getdi.

Onlar gedəndən sonra mən əzilib haldan düşmüş məktuba baxdım ki, ikinci yer uğrunda ən amansız mübarizə aparan eloğlum düz altıncı yerə qol çəkib. Həmin məşum gündən bəri ha fikirləşirəm, amma hələ də ayırd eləyə bilməmişəm ki, eloğlum altıncı yerə basabasda təsadüfən qol çəkmişdi, yoxsa yeddinci yerə imza atan dekanın imzasına yaxın olmaq üçün?

Mən minnətdarlıq üçün dekanın otağına daxil olub dedim:

– Aydın müəllim, bağışlayın, sizi, deyəsən, pis vəziyyətdə qoydum, öz yerinizə imza ata bilmədiniz, həm də lap axıra qol çəkdiniz.

Dekanımın ömür boyu yadımdan çıxmayan cavabı qeyri-standart idi, elə bayaqkı qeyri-standart qərarı kimi:

– Oğlum, adamın böyüklüyü hansısa kağız parçasında neçənci yerə imza atması ilə deyil, həyatda böyük və nəcib işlərə imza atması ilə ölçülür!

Aydın müəllim bu sözləri deyəndən sonra yanıma gəlib, cibimə bükülmüş bir kağız qoydu və məni nəsə soruşmağa macal tapmamış, qapıdan çıxarıb dedi:

– Sənə yaxşı yol, get, məni də çox məşğul eləmə, vacib işlərim var.

Mən liftə minən kimi dərhal kağızı açıb baxdım, dekanımın kağızın arasına qoyduğu pul Norveçə təyyarə bileti almağım və orada ən azı iki ay yaşamağım üçün bəs idi.



# Qızıl



Hüseynalı kişi üzünü Yevlağın Kövər kəndinin mətəbində yerləşdirilən camaata tutub dedi:

– Ayrı şey bilmirəm, o itlərin ahı bizi qoymayacaq yaşayaq, – qəlyanından bir qullab da alıb sözünə davam elədi. – İçimizdə bircə sən savab yeyəsi oldun, – üzünü Əmirulla kişiyə tutdu, – bircə sən iti açıq qoydun. Sənin itin gedib çöldə-bayırda yeməyə bir şey tapacaq. İndi bizim itlər ya acından ölüb, ya da erməni hamısını güllələyib. Bizim məhlədə səndən başqa bir nəfər də iti bağdan açmadı.

Yuxarı məhlədən Həsən kişi ağır-ağır dilləndi:

– Elə bizim məhlədə də heç kim itini açmadı.

– Vallah, nə bilək, dedik, sabaha-birigünə qayıdırıq, – Orta məhlədən Nuru oğlu Səməd hay verdi.

– Əşşi, qoyun dərdimizi çəkək, it açıq qaldı, it bağlı qaldı, ağzınıza nə gəldi, danışırsınız, – Aşağı məhlədən Musa kişi acıqla yumruğunu stola çırpdı.

***

Atam kürən atımızı, bəlkə, məndən də çox istəyirdi. Əlini tərtəmiz yuyub salavat çəkməmiş, bir dəfə də Kürənin yüyənindən tutmazdı. Amma mənə zığlı əlləri ilə elə şapalaq çəkirdi, əlinin palçığı iki gün boynumun dalından getmirdi. Bizdən çox istədiyi atını qulun vaxtından rənginə görə Kürən çağırırdı atam. Kürən də atamın əlindən qardaş kimi tuturdu. Elə atam da qardaş kimi baxırdı Kürənə. Kefinin duru vaxtında görürdün zümzümə eləyir:

Yay olanda dağa yollat,
Yaz olanda ifçin nallat.
Qış olanda məxmər çullat –
At igidin qardaşıdı...

– Örüşləri nə qədər ələk-vələk elədim, Kürəni tapa bilmədim, – gecə saat birə on beş dəqiqə işləyəndə atam başıalovlu həyətimizə girib, üzünü həyəcandan ayaq üstə canı çıxmış anama tutub dedi.

– A kişi, səhərdən qırılıb-batırıq, özün sağ-salamat gəlib çıxdın, min şükür, Kürən...

Anam istədi desin ki, Kürən cəhənnəm olsun – atamın Kürənə olan sevgisi qəfildən yadına düşdü – bildi ki, o cür desə, kişi anamı özü demiş, "dədəsinin xarabasına kimi" qovalayacaq, o saat sözünü dəyişdi:

– Kürən də ki, Allahın köməkliyi ilə sağ-salamat tapılar. Bax, seyidin ocağına nəzir də deyirəm – tələm-tələsik sağ corabının boğa-

zından çıxartdığı bir dəstə puldan beş manat ayırıb sol corabının içinə qoydu – səhərdən qapının ağzında külfətdikcə əlimiz göydə səni gözələyirik.

Bircə yaşı səksəni adlamış Əmirulla babam yanımızda deyildi. Axşamdan yıxılıb yatan babamın dünyadan xəbəri yox idi.

Anam hələ çıxışını qurtarmamışdı:

– Vallah, ağlıma yüz fikir gəldi. Dedim, bəlkə, azıb keçmisən erməni tərəfə, bəlkə, erməni keçib biz tərəfə – iraq olsun, səni əsir aparıb. Özüm qonum-qonşuya hay salmadım, dedim, gələndə məni öldürəcəksən. Amma yarım saat da gec gəlsəydin, hay salacaqdım. A Gülü, – üzünü balaca bacıma tutdu, – sən atanın çörəyini ver, mən gedim Molla Kərimə qurdağzı bağlatdırım.

Gülü bacım günortadan kəsdiyimiz beçənin çığırtmasını süfrəyə gətirsə də, atam bir qismət də kəsmədi.

– Kürəndən soraq çıxmayınca boğazımdan su da keçməyəcək.

Aradan yarım saat keçməzdi, anam haylı-küylü içəri girib dedi ki, ürəyinizi buz kimi saxlayın, Molla Kərimə qurdağzı bağlatdırmışam, canavar Kürənə yaxın gələ bilməz.

Atam acıqlı-acıqlı dilləndi:

– Sən Kərimə deyəydin, ikiayaqlıların ağzını bağlayaydı. Onsuz da mənim Kürənimə canavar yaxın dura bilməz.

Yatmazdan qabaq atam məni yanına çağırıb dedi ki, səhər tezdən dərsim var, sən Yusifi də yanına alıb gedirsən dağa, Kürəni tapmayınca da evə qayıtmırsan. Özü də İman əmin dünən toran çalan vaxtı Kürəni Uzun Yal tə-rəflərdə görüb – axşam gələndə xırmanda qabaqlaşdıq – özü dedi.

Mən tez-tələsik gedib böyük əmimin oğlu, məndən bir sinif aşağı – səkkizincidə oxuyan Yusifi bizə gətirdim ki, hava işıqlaşmamış yola çıxaq. Səhər saat beşdə anamın süfrəyə qoyduğu balnan qaymağı bir-birinə qatışdırıb bədənə vurduqdan sonra tərpəndik. Anam arxamızca su atdı, sonra da axşamkı kimi sağ corabındakı pullardan beş manat ayırıb sol corabına qoydu.

Saat doqquza işləyəndə Uzun Yala çatdıq. Dağların qarı hələ əriməmişdi. Hərdənbir qarın arasından bənövşələr ürkək-ürkək bizə sarı boylanırdı. Bu il birinci dəfə idi ki, bənövşə görürdük. Hərəmiz bənövşədən bir qom yığıb ehmalca pencəyimizin yan cibinə qoyduq. Dedik, qayıdanda evdəkilərə verərik, qoy nübar eləsinlər. Günortaya kimi yalın o üzünü də, bu üzünü də ələk-vələk elədik. Kürən nə gəzirdi?! Heç izinə də rast gəlmədik Kürənin. Günorta üstü yekə bir daşın üstündə oturub anamın yolumuza qoyduğu pendir-çörəyi və soyutma yumurtaları axır loxmasına kimi yedik. Üstündən də Dolayı bulağın suyundan içib dedik, bir az dincimizi alaq...

...Yusif məni daş kimi yuxudan güclə oyadanda, tez böyrümdəki fənəri yandırıb qolumdakı saata baxdım: gecə saat üçə iyirmi dəqiqə işləyirdi. Əvvəl bir az eymandıq. Sonra bir-birimizə ürək-dirək verib toxdadıq. İkimiz də bir ağızdan dedik ki, yekə kişiyik, taylarımız arvad-uşaq saxlayır, nə qorxmaq! İstədik qayıdaq kəndə, atamın sözləri qulağımda cingildədi: “Kürəni tapmayınca evə qayıtmırsan!” Dedik, səhər açılsın, aşaq Yəhər Təpə üzə, orda da olmasa, demək, atı oğurlayıblar.

– Kürən iki günə Yəhər Təpədən o yana gedə bilməz, – Yusif astadan dedi.

Səhərə kimi gözümüzə yuxu getmədi. Ordan-burdan, dağdan-arandan danışıb başımızı qatdıq ki, həm səhər tez açılsın, həm də gecənin vahiməsindən qorxmayaq. Yusiflə bir yerdə olanda danışmağa nə çox söhbət. Sözarası əmi oğluma dedim ki, bəs Yuxarı məhlədən Həmidin ortancıl qızı Hürünü istəyirəm. Gecənin o saatında Yusif mənə bir sifət göstərdi:

– Bəs indiyə kimi bunu mənə niyə deməmisən, nətər dostsan?!

Sonra da dedi ki, yaxşı eləyirsən, Hürü yaxşı qızdı.

Səhər işıqlanan kimi aşdıq Yəhər Təpə üzə. Günorta saat ikiyə kimi axtarmadığımız yer-yurd qalmadı. Gördük ortaya bir şey çıx-

mır. Kürənin özü cəhənnəm, heç izi-tozu da gözə dəymirdi. Yusif dedi ki, atı aparıblar, axtarmağın mənası yoxdur!

– Gəl qayıdaq kəndə, indi evdəkilər özlərini qırdılar, bilirəm ki, anam bu saat tərs oynayır.

Əvvəl istədim, razılaşmayım. Sonra fikirləşdim ki, havayıdan özümüzü yoruruq. Həm də möhkəm acmışdıq, dünən günorta yediyimizin üstündəydik. Razılaşıb tərpəndik üzü kəndə tərəf. Saat beşə qalmış kəndin qənşərinə gəlib çıxdıq. Çıxmağızla da yerimizdə donub qalmağımız bir oldu. Dəli kimi bir-birimizin üzünə baxırdıq. İlahi, nə baş verir burda... Əvvəl elə bildik, bizi qara basır. Qəfildən Yusif bağırdı:

– Erməni kəndə girib...

Yekə bir kolun dalında gizlənib kəndə sarı boylandıq. Baxdıqca vahimə basırdı bizi. Yox, bunu sözlə təsvir etmək olmaz. Kənd elə bil ölmüşdü. İns-cins gözə dəymirdi. Evlərin bəzilərinə od vurulmuşdu. Yusiflə sarılmışdıq bir-birimizə. Ürəyimiz az qalırdı ağzımızdan çıxsın. Bir az sonra bəzi həyətlərdə hərbi geyimlilər gözə dəydi. İki dənə də hərbi maşın Kənd sovetinin binasının qabağında dayanmışdı.

Hə, bir də itlərin səsi... Ömrüm boyu qulağımdan getməz kəndi başına götürən it zingiltisi. Elə çarəsiz hürürdülər ki kəndimizin itləri. O saat bildim ki, hamısı zəncirdədi, açıq it belə yazıq-yazıq hürməzdi. Bu hürüşmə hər tərəfi bağlı olan, əli bir tərəfə çatmayan itlərin hürüşməsiydi...

Təxminən bir saat sonra məhlələrdən on beşə yaxın hərbi geyimli iki-iki, üç-üç kənd sovetinin qabağına toplaşdı. Bir az gəzişəndən sonra isə maşınlara doluşub kənd aşağı getdilər. Hərbi maşınlar gözdən itəndə, mən az da olsa özümə gəldim. Zavallı Yusifimin ayaq üstə canı çıxmışdı. Ürək-dirək verdim:

– Qaqa, ta qorxmaqdan keçib – Yusifin gözlərində ümidə oxşayan bir şey işardı, – mən davam elədim, – arxayın ol, səni burdan sağ-salamat çıxardacağam.



Kəndimizdən Daşkəsənin dağlarına gedən el yolunu ovcumun içi kimi tanıyırdım. Atamla yaylağa heyvan aparanda Kürənin belində azı iyirmi dəfə getmişdim o yolu. Odey – bax o evlər Daşkəsənin evləridi – atam neçə dəfə barmağını uzadıb tüstü çıxan bacaları mənə göstərmişdi. Bunu Yusifə deyəndə fağır əməlli-başlı toxdadı. Mən Yusifin işıldayan gözlərinə baxıb bir az da ürəkləndim:

– Gedək, yaxın evlərin birindən bir şey tapıb yeyək, iki gündü acıq, Allah qoysa, səhərə yaxın meşəynən tərpənərik.

Kəndin lap başındakı birinci evin – babamızın əmisi oğlu Hüseynalı kişinin həyətinə girəndə qarqaradakı it az qaldı zəncirini qırsın. Yusif arxadan dili tutar-tutmaz dedi:

– Gəl qayıdaq, birdən evdə erməni olar.

Acıqlandım:

– Nə erməni! Özün görmədin oğraşların hamısı maşına minib getdilər.

Mən Hüseynalı babanın iri həyətinin lap başındakı evinin açıq qapısından girəndə aclıqdan fənikmiş Yusif də özünü dalımca içəri atdı.

Süfrəni sərili qoyub qaçmışdı zavallılar.

– Yəqin, nahar vaxtı hay düşüb, – mən dilləndim.

Buz kimi kələm dolmasından yeyib üstündən də dovğa içəndən sonra Yusifə dedim, mən gedirəm evimizə baxam. Əmioğlum yalvardı ki, sən Allah, getməyək, sizin ev kəndin lap ayağındadır, gedərik, bir xəta olar. Mən dirəşdim:

– Gedib evimizi görməsəm, kənddən çıxası deyiləm. Bəlkə, elə evin içində atamı-anamı, bacımı-qardaşımı güllələyiblər! – əlimi stola çırpdım.

Yusif gördü xına o xınadan deyil. Naçar qalıb qoşuldu mənə. Hüseynalı kişinin həyətindən çıxıb üzüaşağı düşəndə yolumu Həmidgildən saldım. Həyətin girəcəyindəki zəncirli it bir az atılıb-düşdü, mən böyürdən tez sivişib özümü atdım evə. Bu dəfə Yusif acıqlandı:

– Sən, deyəsən, kəndin bütün evlərini bir-bir gəzəcəksən. Bax görərsən, axırda bizi ələ verəcəksən.

Mən Yusifə məhəl qoymadan Həmidgilin evinin altını üstünə çevirirdim. Əmioğlum daha heç nə demirdi, eləcə maddım-maddım baxırdı. Nəhayət, arxa otaqdakı şkafdan Həmidgilin şəkil albomunu tapdım. Hürünün albomun elə birinci səhifəsindəki şəklini pencəyimin sol cibinə qoyub Yusifə dedim:

– Namərd qızından neçə dəfə şəklini istədim, vermədi...

Orta məhlədəki axırıncı evi keçmişdik. Evimizə beş-on addımlıq yol qalırdı. Arxamca mənimlə daban-dabana gələn Yusif vahiməli səslə çığırdı:

– O nədir???

Mən Yusifin əli ilə göstərdiyi tərəfə – Salman kişinin həyətinə sarı baxanda tüklərim biz-biz oldu... Kimsə ağacdan asılmışdı. Şübhəli-şübhəli o tərəf-bu tərəfə boylanıb doqqazdan həyətə girdik. Yavaş-yavaş ağacdan asılmış adama yaxınlaşdıq.

– Salman kişidi! Özünü asıb, – Yusif udquna-udquna dilləndi.

– Yox, bəlkə, ermənilər asıb, – mən Yusifə hay verdim.

Böyrü üstə yerə yıxılmış kətili görəndə dəqiq bildik ki, ermənininin əlinə keçməsin deyə, özünü asıb Salman kişi... Əvvəlcə Yusifin Salman kişinin əl damından tapıb gətirdiyi belə həyətin küncündə yer qazdıq. Sonra Salman kişini ipdən açıb yerə düşürdük. Yusif su tökdü, mən üz-gözünü yudum. Üzü qibləyə qazdığımız torpağa qoyduq Salmanı. Yusif Salman kişinin məzarını torpaqlayanda, mən ağlaya-ağlaya yavaşca “Fatihə” surəsini oxuyurdum...

Məktəbimizin həyətindən öz həyətimizə təzə keçmək istəyirdik ki, itimizin səsi dünyanı götürdü. Özü də bu, zəncirdəki it səsi deyildi. Qızıl mənə hürməzdi, bu, bəllidir, Yusifə də hürməzdi axı. Evin uşağıdı Yusif. Qızıla o qədər yal verib ki... Bir yol mal-qaraya da hürdüyünü görməmişdim Qızılın. Yusifə dedim:

– Əyil aşağı! Məhlədə yad adam var!

Tez-tələsik məktəbin həyətindəki iri gövdəli armud ağacının dalında gizləndik. Həyətimiz açıq-aydın görünürdü. Məhləmizin ayağı ilə əkdiyimiz qarağat kollarının arasından Qızılın vahiməli səsi gəldi. Bu dəfə hürmürdü Qızıl, boğuşurdu. Yusifin qulağına pıçıldadım:

– Qızıl kimisə tutdu.

Elə bunu demişdim, 30-35 yaşlarında hərbi geyimlinin bağıra-bağıra qarağat kollarının arasından çıxıb evə tərəf qaçdığını gördük. Saniyə keçmədi, Qızıl kolluqdan tapança kimi açıldı. Ara məsafəmiz çox yaxın idi. Hərbi geyimlinin rütbəsi də aydın görünürdü. Leytenant istədi özünü evə atsın, Qızıl aman vermədi. Tullanıb zərblə özünü leytenanta çırpan Qızılın erməni zabitini yerə sərməyi ilə onun başını ağzına salıb vəhşiliklə gəmirməyi bir oldu. Mən bu səhnəni kinolarda da görməmişdim. Qızıl şikarına elə daraşmışdı, elə acgözüklə gəmirirdi erməni zabitinin üz-gözünü, sanki bütün dağıdılan kəndlərin, yandırılan evlərin hayıfını alırdı əclafdan. On-on beş dəqiqə sonra erməni dığası böyürə-böyürə canını it kimi tapşırdı. Mən armud ağacının dalından çıxıb qeyri-ixtiyari özümü məhləmizə atdım. Yusif arxamca qışqırdı:

– Getmə, bəlkə, ayrıları da var.

Kim idi Yusifə fikir verən...

Qızıl məni görən kimi özünü dəli kimi üstümə atdı. Üstü-başı qan içində idi. Duz kimi yaladı məni Qızıl. Mən də Qızıla sarılmışdım. Üzündən, gözündən, boynundan, boğazından, əlindən, ayağından öpürdüm. Mən də Qızılı duz kimi yalayırdım...

***

Daşkəsəndən aşıb gəldiyimiz günün axşamı idi. Atamgilin yerləşdirildiyi məktəbin binasında camaat başımıza yığışmışdı. Gülü bacım tay-tuşları ilə səhər-səhər ayağımızın altında kəsilən heyvanların ətini süfrəyə düzürdü. Anam, bəlkə də, yüzüncü dəfə idi deyirdi ki, mən sənsiz kənddən çıxmırdım, atan məni zorla maşına basdı. Atam da, bəlkə, yüzüncü dəfə idi deyirdi ki, dedik, arvad-uşağı aşıraq Murovdan o üzə, ələ keçməsinlər, özümüz qayıdaq, amma yolumuzu elə bağlamadılar namərd uşağı. Kəndin ağsaqqalları bir ağızdan anamla atama dedilər ki, aman verin, bir az da bunlar danışsın, başlarına gələnlərdən, odun-alovun içindən nə təhər çıxıb gəlməklərindən...

Mən başımıza gələnləri danışıb qurtaranda aşağı məhlədən Musa kişi üzünü babam Əmirullaya tutub dedi:

– Kaş hamımız itləri açıq qoyaydıq...